UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.209

# XXI ƏSRDƏ DÜNYA QAYDASININ PERSPEKTİVLƏRİ BARƏDƏ

**MƏHƏBBƏT SEYİDOVA**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: mahabbatseyidova78@gmail.com*
*https://orcid.org/0009-0000-1094-8477*

## Giriş

XXI əsrin əvvəlləri Avro-Atlantik tərəfdaşlığı ölkələrinin əsl qələbəsi kimi görünürdü. "Soyuq müharibə"də qələbədən sonra ABŞ yeganə supergücdövlət statusunu qoruyub saxlayırdı. Artıq tarixdə üçüncü dəfə idi ki, ABŞ dünya qaydasını öz dəyərlərinə əsaslanaraq qurmağa çalışırdı. İlkin cəhdlər iki dünya müharibəsindən sonra edilmişdir. Hətta Amerika alimi F.Fukuyamanın "Tarixin sonu" adlı kitabı işıq üzü görmüş və bu kitabda müəllif qeyd edirdi ki, liberal demokratiya nəhayət qalib gəldi, bəşəriyyətin tarixi "soyuq" qarşıdurmanın sona çatması ilə başa çatdı və dünyanın qalan hissəsinin liberallaşması yalnız zaman məsələsi olaraq qalır [9, 446].

ABŞ-nin avropalı tərəfdaşlarının gələcəyi də bu cür nikbin görünürdü. Varşava müqaviləsi təşkilatının üzv-dövlətləri hesabına genişlənən Avropa İttifaqı vahid valyutaya və ümumi dəyərlərə malik unitar dövləti xatırladırdı. Bu cür birlik səviyyəsini Avropa Müqəddəs Roma imperiyası dövründən bilmirdi. Lakin Avro-Atlantika blokunun qələbəsindən bir neçə il sonra baş verən proseslər göstərdi ki, mövcud beynəlxalq münasibətlər sistemi keçid xarakteri daşıyır və gələcəyin dünya qaydasının strukturu sirr olaraq qalır.

Yeni dünya düzəni, onun tarixi və perspektivləri amerikalı diplomat və alim H.Kissincerin araşdırmalarında mərkəzi mövzu olaraq qalır. Onun bu araşdırmalarını beynəlxalq münasibətlər tarixinin tədqiqatı və onun gələcəyinin proqnozlaşdırılması kimi adlandırmaq daha məqsədə uyğundur. Tarix sahəsində təhsili olmamasına baxmayaraq, özünü tarixçi adlandıran H.Kissincer öz ölkəsinin xarici siyasətinə ciddi təsir göstərmiş Amerika mədəniyyətində ilk belə tarixçi deyildi. Lakin T.Ruzvelt və V.Vilsondan fərqli olaraq H.Kissincer tarixə fəlsəfi nöqteyi-nəzərdən baxırdı. O, sistemli və ardıcıl olaraq belə bir sualı araşdırırdı – tarixin, ümumiyyətlə, məqsədi varmı? Xarici siyasət idarəsinə rəhbərlik etməsi və xarici siyasət sahəsində praktiki addımlar onun üçün akademik karyerasının davamı və universitet illərində işləyib hazırladığı konseptual baxışlarının reallaşması idi.

Amerika və dünya tarixşünaslığında H.Kissincerə çox əsərlər həsr olunub. Əsasən alimlər tərəfindən ABŞ prezidentləri R.Nikson və C.Ford administrasiyaları dövründə H.Kissincerin diplomatik təşəbbüsləri nəzərdən keçirilir. Diplomatın uğurlu fəaliyyəti müxtəlif müəlliflər tərəfindən müxtəlif cür qiymətləndirlir. Xüsusilə S.Herş, K.Hitçens və V.Şoukros [11, 702; 12,893; 20,542]. H.Kissincerin fəaliyyətini çox mənfi qiymətləndirmişlər. Bu alimlər onu çoxsaylı səhvlər etməkdə, qeyri-peşakarlıqda və hətta bəşəriyyətə qarşı cinayətlərdə ittiham edirdilər. C.Hanhimaki [10,554] və V.Ayzekson [13,893] kimi bioqrafların mövqeyi daha təmkinli idi, lakin onlar da H.Kissinceri R.Niksonun administrasiyasında fəaliyyəti zamanı bir sıra səhv qərarları qəbul etməkdə ittiham edirdilər. Eyni zamanda A.Şlezinger [7,688] və H.Starr [21,206] kimi görkəmli Amerika tarixçiləri H.Kissincerin şübhəsiz diplomatik istedadını qeyd edirdilər, onun natamam geosiyasi strategiyasını obyektiv səbəblərlə, xüsusilə R.Niksonun istefası ilə izah edirdilər.

H.Kissincer xarici siyasətə yanaşmalarında mühafizəkarlığı və hətta kontinental realizminə görə hər zaman tənqidə məruz qalırdı. Əksər alimlər onu realizm nəzəriyyəsinin baniləri C.Kennan və H.Morgentaunun ardıcılı hesab edirdi [14, 689; 19,618]. B. Mazliş H.Kissincerin mühafizəkarlığını və sabitlik arzusunu nasist Almaniyasında aldığı psixoloji travmalar ilə izah edirdi [18, 330]. Misal üçün, H.Kissincerin hazırda son bioqraflarından olan N.Ferqüsson onu idealist hesab edirdi [8, 137].N.Ferqüsson diplomatı Odissey kimi çoxtərəfli adlandıran H.Morgentau ilə həmrəy idi [8, 141]. Həqiqətən də, dövrümüzün görkəmli diplomatlarından hesab edilən H.Kissincer yazırdı ki, əsl realizm durğunluğa gətirib çıxarır, idealizm isə sonda məyusluqla nəticələnən səlib yürüşlərinə səbəb olur. Buna görə də ABŞ-nin siyasətçiləri müxtəlif konseptual cərəyanları seçməməli, birləşdirməlidir [3, 352].

H.Kissincerin diplomatik və xarici siyasət fəaliyyəti ilə bağlı çoxlu sayda əsərlərə baxmayaraq, H. Kissincerin akademik və praktiki fəaliyyətini nəzərə alaraq onun gələcəyin dünya qaydası ilə bağlı baxışlarını təhlil edən kompleks araşdırmalar çox azdır.

İdeal dünya qaydası – qüvvələr balansı. Məqalənin məqsədi sabit dünya qaydasının qurulması probleminə H.Kissincerin baxışlarının davamlılığını və ardıcıllığını göstərməkdir. İdeal dünya qaydası ilə bağlı fikirləri H.Kissincerin "Bərpa olunan sülh" [17,357] adlı doktorluq işində öz əksini tapıb. Məhz bu kitab uzun illər ərzində beynəlxalq münasibətlər sisteminin strukturu ilə bağlı H.Kissincerin konsepsiyasının anlaşılması üçün əsas əsərlərdən biri olub.

Bütün elmi və siyasi fəaliyyəti boyu o hesab edirdi ki, dünya qaydası və sivilizasiyanın dinc yanaşı yaşaması bir və ya bir neçə ölkənin hegemonluğu nəticəsində deyil, yalnız qüvvələr balansı sayəsində mümkündür. Onun fikrincə, beynəlxalq münasibətlər sisteminin işləməsi üçün iki açar olmalıdır: birincisi, bu sistemi sındırmaq cəhdini çətin edəcək tam tarazlıq olmalı, ikincisi, sistem onu yaradıcılarının nəzərində legitim olmalıdır [2, 512].

H.Kissincerin fikrincə, II Dünya müharibəsi qurtardıqdan sonra Amerika idealizmi və qüvvələr balansına əsaslanan uzunmüddətli dünya qaydasını proqnozlaşdırmağın mümkün olduğu qısa müddət oldu [2, 510]. Lakin potensial yaradıcıların əks ideologiyaları səbəbindən bu uzun çəkə bilməzdi. Qərb dövlətlərinin günahı ucbatından baş verən iqtisadi problemlər, terrorizm, ekstremizm, nəticəsiz müharibələr liberal demokratiyanın üstünlüyünü sual altına qoydu. Dünyanın bir çox regionlarında bütün dünya problemlərində xüsusilə ABŞ-ni günahlandıran qloballaşdırma və Qərb iqtisadi qaydaların əleyhdarları hərəkatları mövcuddur.

Prezident R.Nikson administrasiyasında olarkən H.Kissincer Çini ABŞ və SSRİ arasındakı bipolyar qarşıdurmaya cəlb etdi. Beləliklə, bu ölkələrdən geosiyasi üçbucaq yaradılmış və ABŞ bu iki ölkəyə daha yaxın idi, nəinki onlar bir-birinə. Dünya qaydasının bu cür strukturunu alim XXI əsrdə ABŞ üçün də tətbiq edir, yəni bərabərlər arasında birinci dövlət rolu. Diplomatın fikrincə, ABŞ-nin başlıca müttəfiqi rolu Avropa İttifaqına məxsus olmalıdır. Avropasız ABŞ Avrasiya sahillərində bir adadır, məhz bu fikir amerikalılar üçün Avropada mövcudluğun vacibliyini qeyd edir [4, 316]. Buna görə də regiondakı sabitlik ABŞ-nin əsas strateji hədəfidir. Alimin fikrincə, Avropanın əsas problemləri separatizm və ya Brexit deyil, Aİ və NATO-nun ümumi inkişaf strategiyasının olmamasıdır. Əvvəllər Brexit-i tənqid edən H.Kissincer sonralar belə bir qənaətə gəldi ki, ABŞ ilə Böyük Britaniya arasında münasibətlər daha da güclənəcək və Amerikanın regionda mövcudluğu daha da artacaq [22,1].Alim Almaniyanı Aİ-nin lideri görür və hesab edirdi ki, Aİ-nin modernləşdirilməsi daxildən baş verməlidir, əksinə deyil. Diplomat qeyd edir ki, Aİ ideyasının uğursuzluğa uğraması onun üzvlərini geosiyasi vakuuma gətirəcək və ABŞ-ni Avrasiya materikindən kəsəcək, Avropanın özü isə Asiya və ya Yaxın Şərqin əlavəsinə çevriləcək. Buna görə də Avropa-ABŞ tərəfdaşlığı hər iki tərəf üçün sərfəlidir. Alim XX əsrin ikinci yarısında ABŞ-nin avropalı tərəfdaşları ilə münasibətdə siyasətini tənqid edir və onu hökmranlıq ilə laqeydlik arasında tərəddüd kimi səciyyələndirir. Buna səbəb deklarativ bərabərliyə baxmayaraq avropalıların arxalandığı ABŞ-nin hərbi qüdrəti idi. Avropalılar ABŞ-nin nüvə silahının "çətiri" altında olmaqda maraqlı idilər. Lakin alim hesab edirdi ki, "Soyuq müharibə" illərində özünü doğruldan onun sonunda özünü doğrultmaya bilər, ona görə də ABŞ Avropanın beynəlxalq siyasətdə daha fəal iştirakında maraqlıdır, lakin onlara qarşı onlar kimi güclü Avropanın formalaşmasında maraqlı deyil [3, 352].

H.Kissincer ABŞ və Aİ nümayəndələrinin, habelə Aİ və NATO-ya daxil olmayan, lakin bu qurumların təhlükəsizlik və beynəlxalq münasibətlərdə vahid siyasətini müəyyən edən Avropa dövlətlərinin daxil olduğu Atlantika qrupunu yaratmağı təklif edir. "Təsəvvür etdiyimiz formada demokratik sistem məsələsi məhz Şimali Atlantika dövlətlərinin "Soyuq müharibə" olmadığı bir şəraitdə münasibətləri üçün yeni təkan tapa bilib-bilməyəcəyindən asılıdır", - H.Kissincer yazırdı [3, 352]. Diplomat israr edir ki, NATO vahid Atlantika tərəfdaşlığı qurumu kimi qalmamalıdır və yalnız hərbi əməkdaşlıq məsələləri ilə məhdudlaşmayan yeni institutların yaradılması lazımdır. Nümunə olaraq H.Kissincer Transatlantik Azad Ticarət Zonası (TAFTA) təşkilatının adını çəkir və hesab edir ki, islahatların aparılması nəticəsində Rusiya da bu təşkilatın üzvü ola bilər [3,352]. H.Kissincer öz əsərlərində Rusiyaya əhəmiyyətli diqqət yetirir və bu ölkəylə münasibətdə iki prioritetə əməl etməyi tövsiyə edir. Birincisi, Rusiyaya xüsusilə təhlükəsizliyi ilə bağlı çoxtərəfli qərarların qəbulunda iştirakını hiss etdirmək lazımdır. Lakin eyni

zamanda ABŞ və müttəfiqləri daima xatırlatmalıdırlar ki, "Soyuq müharibə"nin qurtarmasına baxmayaraq, qüvvələr balansının saxlanması problemi ABŞ üçün prioritet olaraq qalmaqdadır. ABŞ Rusiyanın İranın nüvə proqramını dəstəkləməsi və dünyanın müxtəlif ölkələrində, xüsusilə İraqda Amerika xarici siyasətinə sistematik hücumları ilə barışmamalıdır. Ümumiyyətlə, ABŞ Rusiyanın qanuni maraqlarına hörmət etməlidir, lakin Rusiya qonşu dövlətlərin maraqlarına hörmət etdiyi təqdirdə, sabit dünya qaydasının bir hissəsi olacaqdır. H.Kissincer qeyd edir ki, Rusiyada kapitalist və demokratik ənənələr yoxdur, xristian Reformasiyası, İntibah dövrü və Böyük coğrafi kəşflər kimi hadisələr olmayıb, ona görə də dünyagörüşündə inqilab çox da asan baş verməyəcək. Ümumiyyətlə, o, Rusiyanı antaqonist deyil, nəzəri müttəfiq hesab edir və qeyd edir ki, xarici siyasəti avantüralara baş vurmasa, onun köməyilə dünya qaydasını təmin etmək mümkündür [1, 848].

Asiyada qüvvələr balansının qurulması alim üçün çox çətin məsələdir. "Asiya dünyanın iri ehtiyatlara malik və daha çox əhalisi olan bir hissəsidir. ABŞ-nin bu regionda mövcudluğu məcburidir", - H.Kissincer yazırdı [3, 352]. Tərkibi nisbətən monoetnik olan Avropadan fərqli olaraq, Asiyanın əsas ölkələri (Çin, Hindistan, İndoneziya) polietnik olub, daha böyük sahəyə malikdirlər. Ona görə də bu regionda tarazlığın qurulması Qərbdən əhəmiyyətli dərəcədə fərqlənir. Fəlakətli dünya müharibələri və ayrı-ayrı Avropa ölkələrinin qlobal təhlükə ilə üz-üzə kifayət qədər potensiala malik olmaması ona gətirib çıxardı ki, "Avropa konserti"nə bənzər qüvvələr balansı Avropada əhəmiyyətini itirdi. Avropa dövlətləri bir-birini artıq təhlükəsizliyin potensial mənbəyi kimi hesab etmir və ABŞ ilə vahid cəbhədə çıxış etməyə hazırdırlar. Avropadan fərqli olaraq, Asiya ölkələrinin geosiyasi təhdidlər barədə anlayışları fərqlidir və bu anlayışın özü Avropadakından əhəmiyyətli dərəcədə fərqlənir. Onların bir qismi Çindən, bir qismi – Rusiyadan çəkinir, Hindistan və Pakistan isə bir-birindən çəkinir. Bundan başqa, böyük insan potensialı sayəsində ölkələrin regionda rolu daim dəyişə bilər. Buna görə də Asiyada potensial ittifaqların qurulması çətin məsələdir, təhlükəsizlik sistemi isə Avropa təhlükəsizlik sistemindən əhəmiyyətli dərəcədə fərqlənir. Alim xatırladır ki, NATO qoşunlarının ümumi komandanlığı və Avropada hərbi nümayəndələrin daimi şurası ABŞ-nin hərbi öhdəliklərini və alyans daxilində tərəfdaşlıq münasibətlərini vurğulayır. Lakin Yaponiya ilə qarşılıqlı təhlükəsizlik barədə müqavilədə hər hansı formal mexanizmlər nəzərdə tutulmayıb və təhlükəsizlik strategiyası kimi deyil, ABŞ tərəfindən birtərəfli zəmanət kimi görsənir. Yalnız Cənubi Koreyada ABŞ Avropada oynadığı rola bənzər rol oynayır, mədəni cəhətdən yaxın Avstraliya ilə sıx əlaqələr Asiya periferiyasında ABŞ-nin mövcudluğunun mürəkkəb zəncirini bağlayır. Alim ehtiyat edir ki, əgər Asiya ölkələri daxili inamsızlıq hissinin öhdəsindən gəlib, azad ticarət zonasını qura bilsələr, bu, ABŞ üçün ciddi çağırış ola bilər. Aİ-yə bənzər Asiya iqtisadi bloku amerikalılar üçün düşmənə çevrilə bilər [3,352].

Gələcəyin dünya qaydası. H.Kissincer gələcəyin dünya qaydasının formalaşmasında elmi-texniki tərəqqinin roluna ayrıca diqqət yetirir. Bu, ilk növbədə nüvə silahıdır. O vurğulayır ki, "soyuq müharibə" illərində yaranan və nisbətən sabit olan vəziyyəti XXI əsrin əvvəllərində az proqnozlaşdırılan olub. Apokaliptik qərarlar qəbul etmək qabiliyyətini nümayiş etdirən nüvə ölkələri düşmən üzərində üstünlüyünü təmin edəcəklər. H.Kissincer bu cür apokaliptik qərarlar qəbul etmək qabiliyyətinə malik olan İranla Şimali Koreyanın nüvə silahına malik olmalarının yolverilməz olduğunu vurğulayır [2,512].

ABŞ və Rusiyadan başqa hər hansı bir ölkənin hücum nüvə potensialına malik olması qüvvələr balansını ciddi şəkildə poza bilər. Çin və Hindistan yaxın illərdə buna nail ola bilər. Nüvə silahı məsələsində H.Kissincer mütəxəssis sayılır. 1957-ci ildə onun "Nüvə silahı və xarici siyasət" [5,512] adlı kitabı nəşr olunmuşdu və bu kitabda H.Kissincer lokal nüvə zərbələrinin köməyilə müharibədə necə qələbə əldə etməyin mümkünlüyünü izah edirdi [5, 512]. O dövrdən alimin düçüncələri dəyişmiş və H.Kissincer məqsədi 2030-cu ilə qədər bütün nüvə silahının ləğv edilməsi olan "Qlobal sıfır" adlı vətəndaş cəmiyyətinin banilərindən biri idi. Lakin buna baxmayaraq, H.Kissincer təkid edir ki, nüvə silahından istifadənin qeyri-mümkünlüyü barədə danışıqların aparılmasından asılı olmayaraq, ABŞ nüvə texnologiyaları sahəsində liderlik etmək məcburiyyətindədir [2,512].

Alim kibertəhlükəsizliyi başqa elmi-texniki çağırış kimi hesab edir [2,512].Nüvə silahından istifadənin səbəb ola biləcəyi fəlakətli nəticələrə baxmayaraq, onun nəticələrini təhlil etmək imkanı vardır. Eyni zamanda İnternet tamamilə başqa perspektivlər açır. Diplomat E.Makronun və H.Klintonun rəsmi serverlərinin haker hücumlarına məruzqalmasını

və bu siyasətçilərin iştirakıyla seçkilərin nəticələrinə əhəmiyyətli təsir göstərməsini nümunə olaraq göstərir. H.Kissincer viruslar barədə də qeyd edir. Misal üçün, İsrail hökuməti tərəfindən dəstəklənən kiberhücum nəticəsində "Stuxnet" virusu İranın nüvə proqramının dayanmasına səbəb oldu, bu virusun vurduğu ziyan isə nüvə zərbəsinə bərabər idi. "Rus bot"u kimi tanınan başqa bir virus Estoniyanı bir neçə gün elektrik enerjisiz qoydu. Alim vurğulayır ki, bu gün smartfonlu insan əvvəllər əksər xüsusi xidmət orqanları üçün əlçatmaz olan informasiya və analitik gücə malikdir və bu güc sürətlə artmaqdadır. Bununla bağlı davranış strategiyasının və təsəvvürün olmaması qaydaya deyil, dünya xaosuna səbəb ola bilər. Süni intellekt məsələsinə H.Kissincer AlphaGo alqoritminin "qo" üzrə dünya çempionu Li Sedol üzərində qələbəsinə həsr olunan "How the Enlightenment Ends" ("Maarifləndirmə necə bitir") adlı məqaləsində toxunur [15, 14]. Alim hələ "Çin haqqında" [4,635] kitabında qeyd edirdi ki, "qo" süni intellekt üçün klassik şahmatdan daha çətindir, çünki intuisiyadan başqa yaradıcı və strateji düşüncədən istifadə etmək tələb olunur [4, 635]. Buna görə də H.Kissincer bu cür məsələlər haqqında düşünürdü – bu cür gücdən gələcəkdə kim istifadə edə bilər, bu, qlobal qüvvələr balansında necə əks olunacaq, ən son yeniliklərdən müəyyən ərazinin müdafiəsinə can atmayan və qanunilik prinsiplərinə məhəl qoymayan qeyri-dövlət təşkilatlar tərəfindən istifadə edildiyi təqdirdə milli dövlətlər arasında tarazlığı necə bərpa etməli.

Öz növbəsində son illərin ən məşhur tarixçilərindən olan N.Y.Harari hesab edir ki, məhz qabaqcıl texnologiyaların köməyilə dövlətlər "rəqəmsal diktatura" quracaqlar və onun əsasında öz vətəndaşları üzərində total nəzarət dayanacaq [6, 382]. N.Y.Harari həmçinin qeyd edir ki, epidemiyalar bəşəriyyətin tarixində qaldılar [6, 382], lakin COVID-19 bunun əksini sübut etdi. H.Kissincer israr edir ki, epidemiyalar təkrarlanacaq və dünya onlara qarşı müqavimət göstərmək üçün birləşmək məcburiyyətindədir. Alim hesab edir ki, kimyəvi və bakterioloji silahı yaratmaq imkanı dünya qaydası üçün həmişəlik xəbərdarlıq olacaq. O, inkişaf etməkdə olan ölkələrdə xarici yardım olmadan baş verəcək mütləq xaosa yol verməmək üçün iqtisadi cəhətdən güclü dövlətlər daha zəif dövlətlərə Marşal planına bənzər plana uyğun yardım göstərməyə çağırır [16, 5]. Hazırda hökumət elitaları və sıravi vətəndaşlar arasında belə bir fikir mövcuddur ki, Çin COVID-19 infeksiyasının yayılmasına görə günahkardır və ziyandan əziyyət çəkmiş ölkələrə və qeyri-hökumət təşkilatlarına təzminat ödəməlidir. Lakin alim hesab edir ki, məhz birləşmiş beynəlxalq ictimaiyyətin səyləri epidemiya ilə mübarizədə, habelə XXI əsrdə sabit beynəlxalq münasibətlər sisteminin yaradılmasında müsbət nəticəni təmin edəcəkdir [16, 6].

Amerika xarici siyasətinin missioner və təcridolunma kimi iki yanaşmasını təhlil edən H.Kissincer qeyd edir ki, ABŞ dünyadan təcrid oluna bilməyəcək, həmçinin uzun müddət hökmranlıq da edə bilməyəcək. Amerikalılar öz dəyərlərini qəbul etdirməyə deyil, təsis etməyə başlayacaqlar. Buna görə də alim Amerikaya öz missiyasını mərhələli reallaşdırmağı təklif edir və hər mərhələ Amerika dəyərləri ilə xarici siyasət tələblərinin simbiozundan ibarət olacaq. ABŞ anlamalıdır ki, dünyada qüvvələrin yenidən qruplaşması nəticəsində yeni yaradılan koalisiya onu həm hərbi, həm də iqtisadi cəhətdən üstələyə bilər. Bu, amerikalılar, xüsusilə də yüzilliklər ərzində dünya qaydasını formalaşdıran və onu bütün dünyaya qəbul etdirən avropalılar üçün ciddi çağırış olacaq. Buna görə də yenidən qurulmaq və yeni reallıqlara hazırlaşmaq Qərb diplomatiyası üçün çağırış olacaq.

"Dünya qaydası" adlı əsərində alim ehtimal edir ki, yeni beynəlxalq münasibətlər sistemi XXI əsr boyu formalaşacaqdır. Dünya çoxqütblü olacaq, ABŞ isə əvvəlki hegemonluğunu itirəcək, lakin Çin, Hindistan, Aİ kimi regional liderlər ilə, transformasiya nəticəsində və bir çox faktorların uyğun gəlməsi təqdirdə Rusiya və Braziliya ilə bərabər aparıcı aktor olaraq qalacaq. H.Kissincer qeyd edir ki, dünya Vestfaliya sistemində iştirakçı-dövlətlər funksiyası yerinə yetirəcək regional blokların yaradılması istiqamətində hərəkət edir. Mümkün ssenarilərdən biri onun fikrincə, siyasi arenada aparıcı aktorların sayının minimuma endirilməsi olacaqdır ki, bu da barışmaz dövlət qruplarının bir-birini tamamilə məğlub etməyə çalışdığı XX əsrin əvvəllərindəki ritorika və təcrübənin qayıdışına gətirib çıxaracaq [2, 512].

## Nəticə

Yekun olaraq qeyd etmək olar ki, H.Kissincer universitet illərində tərtib etdiyi dünya qaydasının qurulması ideyalarına və nəzəriyyəsinə sadiq idi. Diplomat hesab edirdi ki, möhkəm sistem ayrı-ayrı ölkələrin və ya koalisiyaların diqtəsi altında deyil, yalnız qüvvələr

balansına əsaslanmaqla qurula bilər. Bu sistemin bütün "qurucuları" I Dünya müharibəsindən sonra baş verdiyi kimi nəyinsə hesabına öz maraqlarını təmin etməməli, müəyyən maraqlarını qurban verməlidirlər. Alim hesab edir ki, XXI əsrin yeni dünya qaydası qüvvələr balansının hər hansı vahid konsepsiyasına əsaslanmayacaq, müxtəlif mədəniyyətləri təmsil edən bir çox ölkələrin iştirakıyla qurulacaqdır. Eyni zamanda alim israr edir ki, ABŞ məhz H.Kissincer tərəfindən yaradılmış "geosiyasi üçbucaq" dövründə olduğu kimi gələcək qüvvələr balansında başlıca dövlət olmaq üçün praktiki addımlar atmalıdır.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Kissinger, H. A. Diplomacy. New York, 1994. — s. 848 .*

*2. Kissinger, H. A. World Order. New York, 2015. — s. 512 .*

*3. Kissinger, H. A. Does America Need a Foreign Policy? : Toward a Diplomacy for the 21st Century. New York, 2002. — s. 352.*

*4. Kissinger, H. A. On China. New York, 2014. — s. 635.*

*5. Kissinger, H. A. Nuclear Weapons & Foreign Policy. New York, 1959. — s.512.*

*6. Harari Y.N. 21 Lessons for the 21st Century. New York, 2018. — s.382 .*

*7. Schlesinger Jr., Arthur M. The Cycles of American History. New York, 1992. — s. 688.*

*8. Ferguson, N. Meaning of Kissinger / N. Ferguson // Foreign Affairs. — 2015. — Vol. 94, N 5. — s. 134—147.*

*9. Fukuyama, F. The End of History and the Last Man / F. Fukuyama. — Toronto: Maxwell Macmillan, 1992. — s.446.*

*10. Hanhimaki, J. The flawed architect: Henry Kissinger and American foreign policy / J. Hanhimaki. — Oxford: Oxford University Press, 2004. — s. 554.*

*11. Hersh, S. The Price of Power: Kissinger in the Nixon White House / S. Hersh. — N. Y.: Summit Books, 1983. — s. 702.*

*12. Hitchens, Ch. The Trial of Henry Kissinger / Ch. Hitchens. — N. Y.: Simon Schuster, 2001. — s.893.*

*13. Isaacson, W. Kissinger H. A.: Biography / W. Isaacson. — N. Y.: Simon Schuster, 1992. — s.893.*

*14. Kennan, G. The Kennan Diaries / G. Kennan. — N. Y.: Norton Company, 2014. —s. 689.*

*15. Kissinger, H. A. How the Enlightenment Ends / H. A. Kissinger // The Atlantic. — 01.06.2018. — s. 12—16.*

*16. Kissinger, H. A. The Coronavirus Pandemic Will Forever Alter the World Order / H. A. Kissinger // The Wall Street Journal. — 05.04.2020. — s. 4—7.*

*17. Kissinger, H. A. World Restored: Metternich, Castlereagh and the Problems of Peace, 1812—1822 / H. A. Kissinger. — Boston: Mifflin, 1957. — s.357.*

*18. Mazlish, B. Kissinger. The European Mind in American Policy / B. Mazlish. — N. Y.: Basic Books, 1976. — s.330.*

*19. Morgenthau, H. Politics among nations / H. Morgenthau.— N. Y.: Random House, 1973. — s.618.*

*20. Shawcross, W. Sideshow: Kissinger, Nixon and the Destruction of Cambodia / W. Shawcross. — Lanham: Cooper Square Press, 2002. — s.542.*

*21. Starr, H. Henry Kissinger: Perceptions of International Politics / H. Starr. — Lexington: The University Press of Kentucky, 1984. — s. 206 .*

*22. Wintour, P. Henry Kissinger says Brexit will bring Britain closer to the US / P. Wintour [Electronic resource] // The Guardian. — 27.06.2017. — Mode of access: <https://www.theguardian.com/politics/2017/jun/27/henry-kissinger-says-brexit-will-bring-britain-closer-to-the-us>. — Date of access: 20.03.2020.*


### On the prospects of world order in the 21st century

### SUMMARY


The article examines the views of the outstanding American scientist and diplomat Henry Alfred Kissinger on the formation of the system of international relations in the 21st century. G. Kissinger believed that the new world order that emerged after the Cold War is transitional, and we are on the threshold of the formation of a new world order that is more suitable for the entire world community than the current one. Despite the emergence of a multipolar world, the scientist singles out the United States as a balancing factor and a "more equal" state than others. At the same time, G. Kissinger believed that due to the mistakes of American diplomacy, the United States would be forced out of many important regions of the world, perhaps becoming an island on the shores of Eurasia.

**Keywords:** *geopolitics, Henry Kissinger, world order, US strategy.*

**О перспективах мирового порядка в XXI веке**

**РЕЗЮМЕ**

В статье рассматриваются взгляды выдающегося американского учёного и дипломата Генри Альфреда Киссинджера на формирование системы международных отношений в XXI веке. Г.Киссинджер считал, что новый мировой порядок, сложившийся после «холодной войны», является переходным, и мы находимся на пороге формирования нового мирового порядка, более подходящего для всего мирового сообщества, чем нынешний. Несмотря на появление многополярного мира, учёный выделяет США как балансирующий фактор и «более равноправное» государство, чем другие. В то же время Г.Киссинджер считал, что из-за ошибок американской дипломатии США будут вытеснены из многих важных регионов мира, возможно, они станут островом на берегу Евразии.

**Ключевые слова:** *геополитика, Генри Киссинджер, мировой порядок, стратегия США.*

**XÜLASƏ**

Məqalədə görkəmli Amerika alimi və diplomatı Henri Alfred Kissincerin XXI əsrdə beynəlxalq münasibətlər sisteminin formalaşması ilə bağlı fikirləri nəzərdən keçirilir. H.Kissincer hesab edirdi ki, “Soyuq müharibə”dən sonra formalaşan yeni dünya qaydası keçid xarakteri daşıyır və biz bütün dünya birliyinə indikindən daha münasib, yeni dünya qaydasının formalaşması ərəfəsindəyik. Çoxqütblü dünyanın yaranmasına baxmayaraq, alim ABŞ-ni tarazlayan faktor və başqalarından “daha bərabər” dövlət olaraq fərqləndirir. Eyni zamanda H.Kissincer hesab edirdi ki, Amerika diplomatiyasının səhvləri ucbatından ABŞ dünyanın bir çox mühüm regionlarından sıxışdırılıb çıxarılacaq, bəlkə də Avrasiya sahillərində bir adaya çevriləcək.

**Açar sözlər:** *geosiyasət, Henri Kissincer, dünya qaydası,ABŞ strategiyası.*